Azərbaycan.- 2020.- 23 dekabr. S. 6.

# "Prezident Kuboku" uğrunda çövkən milli atüstü oyununun finalçıları bəlli olub

22 dekabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Atçılıq Federasiyası tərəfindən təşkil olunan "Prezident Kuboku" turnirinin yarımfinal mərhələsinin oyunları keçirilib.

Qrup oyunlarının nəticələrinə əsasən, yarımfinal mərhələsində "Sərhədçi" komandası "Buta Qolden" komandası ilə, "Polad" komandası isə "Sərhədçi 2-Dilbaz" komandası ilə qarşılaşıb.

Gərgin mübarizə şəraitində keçən birinci oyunda "Sərhədçi" öz rəqibinə 1-0 qalib gələrək finala vəsiqə qazanan ilk komanda olub. Oyundakı tək qolu komandanın kapitanı Elçin Camallı vurub.

Saat 13:00-dan etibarən başlayan ikinci oyunda üstünlüyü ələ alan "Polad" komandası ilk hissəni rəqibi qarşısında 3-0 hesabı ilə öndə bitirib. İkinci hissənin əvvəlində "Sərhədçi 2-Dilbaz" komandası meydana çıxmaqdan imtina etdiyinə görə ona 0-3 hesablı texniki məğlubiyyət elan olunub.

Bununla da 24 dekabr 2020-ci il tarixdə keçiriləcək final görüşünün iştirakçıları bəlli olub. Saat 13:00-dan etibarən başlayacaq görüşdə "Sərhədçi" və "Polad" komandaları qarşılaşacaqlar.

Üçüncülük oyunu isə 24 dekabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən "Buta Qolden" və "Sərhədçi 2-Dilbaz" komandaları arasında baş tutacaq.

Xatırladaq ki, oyunlar tamaşaçıların iştirakı olmadan açıq havada və karantin qaydalarına uyğun şəkildə keçirilir.

| 24.12.2020 | | | |
|---|---|---|---|
| FİNAL OYUNU | | | |
| Polad | ?–? | Sərhədçi | 13:00 |
| ÜÇÜNCÜLÜK OYUNU | | | |
| Sərhədçi 2-Dilbaz | ?–? | Buta Qolden | 12:00 |

**Prezident Kuboku uğrunda Çövkən Milli Atüstü oyunu 2020**

**Yarımfinal mərhələsi oyunlarının nəticələri**

**22.12.2020**

| | | |
|---|---|---|
| Buta Qolden | 0–1 | Sərhədçi |
| Sərhədçi 2-Dilbaz | 0–3 | Polad |

*"Azərbaycan"*